**İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsinin gəlirləri *98 451 400,0* manat, xərcləri *98 451 400,0* manat məbləğində təsdiq edilir.[1]

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2019-cu ildə İşsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | **Gəlirlərin mənbələri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 83 421 400,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 13 060 700,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 13 060 700,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 57 300 000,0 |
| 2. | Sair gəlirlər | 30 000,0 |
| *3.*[2] | *İşsizlikdən sığorta fondunun 2018-ci il büdcəsinin icrası nəticəsində yaranmış qalıq vəsait* | *15 000 000,0* |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | **Xərclərin istiqamətləri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | İşsizliyə görə sığorta ödənişləri | 11 000 000,0 |
| 2.[3] | Peşə hazırlığı və əlavə təhsilin təşkili | *2 800 000,0* |
| 3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 300 000,0 |
| 4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 150 000,0 |
| 5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 1 900 000,0 |
| 6.[4] | Özünüməşğulluq tədbirlərinin təşkili | *56 041 400,0* |
| 7. | Sığortaolunanların əməkhaqqının müəyyən hissəsinin müəyyən müddətə (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsi | 5 000 000,0 |
| 8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun yerli orqanlarının, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 19 260 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İlin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaitləri növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 noyabr 2018-ci il
1351-VQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 12 iyul 2019-cu il tarixli **1651-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyul 2019-cu il, 160 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1207**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 12 iyul 2019-cu il tarixli **1651-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyul 2019-cu il, 160 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1207**) ilə 1-ci maddədə hər iki halda "**8 3 451 400,0**" rəqəmləri "**9 8 451 400,0**" rəqəmləri ilə əvəz edilmişdir.

[2] 12 iyul 2019-cu il tarixli **1651-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyul 2019-cu il, 160 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1207**) ilə 2-ci maddəyə yeni məzmunda 3-cü hissə əlavə edilmişdir.

[3] 12 iyul 2019-cu il tarixli **1651-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyul 2019-cu il, 160 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1207**) ilə 3-cü maddənin 2-ci hissəsində "**1 800 000,0**" rəqəmləri "**2 800 000,0**" rəqəmləri ilə əvəz edilmişdir.

[4] 12 iyul 2019-cu il tarixli **1651-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyul 2019-cu il, 160 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1207**) ilə 3-cü maddənin 6-cı hissəsində "**42 041 400,0**" rəqəmləri "**56 041 400,0**" rəqəmləri ilə əvəz edilmişdir.